# MİLLETLERARASI ANDLAŞMA

**Karar Sayısı: 5022**

25 Haziran 2021 tarihinde İstanbul'da imzalanan ekli "Türkiye-Azerbaycan Kara Ulaştırması Karma Komisyon Toplantısı Protokolü"nün onaylanmasına, 244 sayılı Kanunun 5 inci maddesi ile 9 sayılı Cumhurbaşkanlığı Kararnamesinin 2 nci ve 3 üncü maddeleri gereğince karar verilmiştir.

29 Aralık 2021

**Recep Tayyip ERDOĞAN**
CUMHURBAŞKANI

**Türkiye- Azerbaycan**
**Kara Ulaştırması Karma Komisyon Toplantısı**
**PROTOKOLÜ**

Uluslararası karayolu taşımacılığına ilişkin Türkiye-Azerbaycan Kara Ulaştırması Karma Komisyon Toplantısı 24-25 Haziran 2021 tarihlerinde İstanbul'da gerçekleştirilmiştir. Toplantıda Türk Heyetine Ulaştırma ve Altyapı Bakanlığı Ulaştırma Hizmetleri Düzenleme Genel Müdürü Murat BAŞTOR, Azerbaycan Heyetine Ulaştırma, İletişim ve Yüksek Teknolojiler Bakanlığı Karayolu Taşıma İdaresi Başkanı Habib HASANOV başkanlık etmiştir.

Heyet listeleri ektedir.

Türkiye tarafı ve Azerbaycan tarafı (bundan sonra "Taraflar" olarak adlandırılacaktır), aşağıdaki konuların müzakere edilmesine karar vermişler ve toplantı gündemini onaylamışlardır.

Gündem:

1- İstatistiki bilgi teatisi,
2- Eşya taşımacılığı ve izin belgesi kotası,
3- Yolcu taşımacılığı,
4- Diğer konular.

**Madde 1**

Taraflar, aralarındaki uluslararası karayolu taşımalarının genel durumunu görüşmüşlerdir. İki ülke arasındaki ticaretin önemli bir bölümünün karayolu ile gerçekleştiği dikkate alınarak, karayolu taşımacılığının ticaret hacminin artmasına olumlu tesirinin olduğu kaydedilmiştir.

Taraflar istatistikî bilgi teatisinde bulunmuşlar, iki ülke arasındaki ticaretin ve eşya taşımalarının, özellikle transit taşımaların artışından duydukları memnuniyeti ifade etmişlerdir.

**Madde 2**

Taraflar, taşıma hacminin özellikle de transit taşımaların arttığını dikkate alarak, 2021 yılı için geçiş belgesi kotasının aşağıdaki sayıda belirlenmesi hususunda mutabık kalmışlardır;

- 46.000 adet ikili/transit (tek-tip) geçiş belgesi,
- 3.000 adet 3. ülke geçiş belgesi,
- 300 adet Türkiye limanlarından taşımalar için (Azerbaycan plakalı taşıtlar için 3.ülke geçiş belgesi kotası içinden).

Taraflar, 17 Eylül 2019 tarihinde Bakü'de gerçekleştirilen 8. Dönem Türkiye-Azerbaycan Karma Ekonomik Komisyonu Protokolü'nün eki olan Eylem Planının 122. Maddesine istinaden Nahçıvan'a yapılacak taşımalar için ilave 5.000 adet tek-tip ve 3.000 adet transit ilave geçiş belgesinin teati edildiğini ifade etmişlerdir. Türkiye tarafı, toplam 8.000 adet ilave geçiş belgesi için Azerbaycan tarafına teşekkürlerini iletmiştir.

Taraflar, teati edilen geçiş belgelerinin bir sonraki yılın 1 Şubat tarihine kadar geçerli olduğunu teyit etmişlerdir.

Taraflar, ihtiyaç duyulması halinde ilave geçiş belgesi taleplerinin iyi niyet çerçevesinde değerlendirilmesi konusunda mutabık kalmışlardır.

**Madde 3**

Taraflar, 2020 yılı Mart ayında başlayan Covid-19 salgını nedeniyle iki ülke arasında düzenli yolcu taşımacılığının durduğunu belirtmişlerdir. Bu kapsamda, Covid-19 tedbirlerine riayet edilmesi şartıyla taşımaların yeniden başlaması amacıyla ülkelerinin yetkili kurumlarına başvurulmasını kararlaştırmışlardır. Aynı zamanda, 2020 yılı yolcu taşımacılığı için verilmiş izinlerin 2021 yılının ilk yarısında kullanılmamış olması nedeniyle, bu izin belgelerinin geçerlilik süresinin 2021 yılı sonuna kadar uzatılması hususunda anlaşmışlardır.

Taraflar, iki ülke arasında arızi yolcu ve turist taşımalarının geliştirilmesi için 200 adet izin belgesinin teati edilmesi hususunda mutabık kalmışlardır.

**Madde 4**

Türkiye tarafı, iki ülke arasında ticaretin artmasına uygun olarak taşımaların hacminin de arttığını belirtmiş, ikili ve transit taşımaların kademeli olarak liberalleştirilmesini ve yol vergilerinin kaldırılmasını teklif etmiştir.

Azerbaycan tarafı, Türkiye tarafının teklifinin yapılacak olan yeni Karayolu Taşımacılığı Anlaşması çerçevesinde değerlendirileceğini ifade etmiştir.

Taraflar, iki ülke arasında 1992 yılı Kasım ayında Ankara'da imzalanan ikili karayolu taşımacılığı Anlaşmasının yerini alacak günün şartlarına uygun yeni bir Anlaşma yapılabilmesi için çalışmaların en kısa sürede başlaması hususunda anlaşmışlardır.

Türkiye tarafının talebi üzerine, Azerbaycan tarafı, yabancı plakalı taşımacılardan alınan belirli ücretlerin (tehlikeli madde, büyük şehirlere giriş, gabari dışı taşımalardan alınan ücretler) düzenlenmesine yönelik çalışmalar hakkında bilgi vermiş ve düzenlemenin yakın zamanda onaylanarak yürürlüğe girmesini beklediklerini bildirmiştir.

Türkiye tarafı, Hazar geçişlerinde alınan ücretlerde Azerbaycan tarafının ek indirim yapması halinde Orta Koridorun Türk taşımacılar için cazip hale geleceğini ifade etmiş ve bu konuda Azerbaycan heyetinin yardımını rica etmiştir.

Toplantıda, Türkiye taşıyıcılarının Orta Asya istikametinde taşımaları ile bağlı, Azerbaycan Hazar Deniz Gemiciliği (ASCO) temsilcisi tarafından feribot ve Ro-Ro taşımaları ile ilgili tarifeler, hareket cetveli, gemilerin sayısı, kapasitesi hakkında detaylı bilgi verilmiştir. Taraflar, karayolu taşıtlarının Hazar geçiş ücretlerinde ek indirim yapılması için taşıma maliyetlerinin optimizasyonu amacıyla diğer paydaşlar nezdinde ortak girişimde bulunulmasının önemini vurgulamışlardır.

Bu Protokolün hükümleri, yeni bir protokol ile değiştirilene kadar geçerli olacaktır.

Toplantı samimi ve kardeşlik ortamında geçmiş ve her iki heyet toplantı sırasında ulaşılan sonuçtan karşılıklı olarak memnuniyetlerini ifade etmişlerdir.

Azerbaycan tarafı, bir sonraki Karma Komisyon Toplantısının Azerbaycan'da yapılmasını teklif etmiştir. Toplantı yeri ve tarihi belirlenerek diplomatik kanallar vasıtasıyla bildirilecektir.

Bu Protokol, 25 Haziran 2021 tarihinde İstanbul'da Türkiye ve Azerbaycan dillerinde düzenlenmiş, eşit derecede geçerli iki orijinal nüsha olarak imzalanmıştır.

| Türkiye Heyeti Adına | Azerbaycan Heyeti Adına |
|---|---|
| Mü[illegible]t BAŞTOR | Habib HASANOV |

# TÜRKİYE HEYET LİSTESİ

| | |
|---|---|
| Murat BAŞTOR | Heyet Başkanı / Genel Müdür<br>Ulaştırma ve Altyapı Bakanlığı<br>Ulaştırma Hizmetleri Düzenleme Genel Müdürlüğü |
| Hasan BOZ | Daire Başkanı<br>Ulaştırma ve Altyapı Bakanlığı<br>Ulaştırma Hizmetleri Düzenleme Genel Müdürlüğü |
| Olcay DOĞAN | Daire Başkanı<br>Ulaştırma ve Altyapı Bakanlığı<br>Avrupa Birliği ve Dış İlişkiler Müdürlüğü |
| Derya ERTAN ŞAHİN | Şube Müdürü<br>Ulaştırma ve Altyapı Bakanlığı<br>Ulaştırma Hizmetleri Düzenleme Genel Müdürlüğü |
| Ufuk Can AKIN | AB Uzmanı<br>Ulaştırma Hizmetleri Düzenleme Genel Müdürlüğü<br>Ulaştırma ve Altyapı Bakanlığı |
| Serkan Sıtkı KAYATÜRK | Ticaret Uzmanı<br>Gümrükler Genel Müdürlüğü<br>Ticaret Bakanlığı |
| Ali ÇİÇEK | Türkiye Odalar ve Borsalar Birliği (TOBB) |
| Nejla ALBAYRAK | Uluslararası Nakliyeciler Derneği (UND) |
| Hakan DEMİRCAN | Uluslararası Nakliyeciler Derneği (UND) |
| Hakan ERDEM | Uluslararası Karayolu ile Yük Taşımacılığı ve Acente Sahipleri Derneği (UKAT) |

## AZERBAYCAN HEYET LİSTESİ

| | |
|---|---|
| Habib HASANOV | Heyet Başkanı / Devlet Karayolu Taşıma İdaresi Başkanı |
| Nijat İBRAHİMLİ | Devletlerarası İşbirliği Daire Başkanı<br>Ulaştırma, Haberleşme ve Yüksek Teknolojiler Bakanlığı |
| Malik ALİYEV | Daire Başkanı<br>Devlet Karayolu Taşıma İdaresi |
| Hidayet ASLANOV | Uluslararası Taşımalardan Sorumlu Şube Müdürü<br>Devlet Karayolu Taşıma İdaresi |
| Anar BABAYEV | Başkan Yardımcısı<br>Nahcivan Özerk Cumhuriyeti Devlet Ulaştırma İdaresi |
| Niyamaddin ASLANOV | Kıdemli Uzman<br>Azerbaycan Hazar Deniz Gemiciliği Ticaret Dairesi |

**Beynəlxalq avtomobil daşımaları üzrə**
**Türkiyə- Azərbaycan Qarışıq Komissiyasının növbəti iclasının**

# PROTOKOLU

Beynəlxalq avtomobil daşımaları üzrə Türkiyə- Azərbaycan Qarışıq Komissiyasının növbəti iclası 2021-ci ilin 24-25 iyun tarixlərində İstanbul şəhərində keçirilmişdir.

Türkiyə nümayəndə heyətinə Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur Nazirliyinin Nəqliyyat Xidmətlərinin Tənzimlənməsi Baş İdarəsinin rəisi cənab Murat Baştor, Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi cənab Həbib Həsənov rəhbərlik edirdi.

Nümayəndə heyətlərinin tərkibi əlavə olunur.

Türkiyə tərəfi və Azərbaycan tərəfi (bundan sonra "Tərəflər" adlandırılacaq) aşağıdakı məsələlərin müzakirə edilməsi barədə razılığa gəldilər və iclasın gündəliyini təsdiq etdilər.

**Gündəlik:**

1. Statistik məlumatların mübadiləsi;
2. Yük daşımaları və "İcazə" blanklarının kontingenti;
3. Sərnişin daşımaları;
4. Digər məsələlər.

## Maddə 1

Tərəflər Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında beynəlxalq avtomobil daşımalarının ümumi vəziyyətini müzakirə etdilər. İki ölkə arasındakı ticarət həcminin əsas hissəsinin avtomobil daşımaları ilə həyata keçirildiyi nəzərə alınaraq, avtomobil daşımalarının ticarətin inkişafına öz müsbət təsirini göstərdiyi qeyd olundu.

Tərəflər arasında statistik məlumatların mübadiləsi aparıldı, iki ölkə arasında ticarətin və yük daşımalarının, xüsusilə tranzit daşımaların artımından məmnunluq ifadə olundu.

## Maddə 2

Tərəflər daşımaların həcminin, xüsusilə tranzit daşımaların artdığını nəzərə alaraq, 2021-ci il üçün "İcazə"lərin kvota sayının aşağıdakı qaydada müəyyən edilməsi barədə razılığa gəldilər:

- ikitərəfli daşımalar və tranzit keçid üçün - 46.000 ədəd;
- 3-cü ölkədən/ölkəyə daşımalar üçün - 3000 ədəd;
- o cümlədən Türkiyə limanlarından daşımalar üçün - 300 ədəd.

Tərəflər Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Hökümətlərarası Komissiyanın 17 sentyabr 2019-cu il tarixdə Bakıda keçirilmiş 8-ci iclasının Tədbirlər Planının 122-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasına həyata keçirilən daşımalar üçün əlavə 3000 ədəd tranzit və 5000 ədəd universal "İcazə" blankının təqdim olunduğunu ifadə etdilər.

Türkiyə tərəfi 8000 ədəd əlavə "İcazə" blankı təqdim etdiyi üçün Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.

Tərəflər təqdim edilən "İcazə" blanklarının növbəti ilin 1 fevral tarixinədək qüvvədə olduğunu təsdiq etdilər.

Tərəflər ehtiyac olduğu təqdirdə, əlavə "İcazə" blanklarının mübadiləsi barədə sorğunun xoş niyyət çərçivəsində dəyərləndirilməsinə dair razılığa gəldilər.

**Maddə 3**

Tərəflər 2020-ci ilin mart ayından etibarən Covid-19 pandemiyasının yayılması səbəbindən beynəlxalq müntəzəm sərnişin daşımalarının dayandırıldığını bildirdilər. Bu çərçivədə, Covid-19 tədbirlərinə riayət edilməsi şərtilə daşımaların bərpası üçün öz ölkələrinin müvafiq səlahiyyətli orqanlarına müraciət edilməsi barədə razılığa gəldilər.

Tərəflər 2020-ci ildə müntəzəm sərnişin daşımaları üçün təsdiq edilmiş sənədlər toplusu istifadə olunmadığından sənədlərin qüvvədə olma müddətinin 2021-ci ilin sonunadək uzadılmasına dair qərar qəbul etdilər.

Tərəflər qeyri-müntəzəm sərnişin daşımalarının həyata keçirilməsi üçün mübadilə edilən "İcazə" blanklarının sayının 200 ədəd müəyyən olunmasına dair razılığa gəldilər.

**Maddə 4**

Türkiyə tərəfi iki ölkə arasında ticarətin artmasına uyğun olaraq daşımaların da həcminin artdığını bildirdi, ikitərəfli və tranzit daşımaların mərhələli şəkildə liberallaşdırılması və yol vergilərinin ləğv edilməsini təklif etdi.

Azərbaycan tərəfi Türkiyə tərəfinin təklifinə beynəlxalq avtomobil daşımaları sahəsində hazırlanacaq yeni Saziş layihəsi çərçivəsində baxılacağını qeyd etdi.

Tərəflər iki ölkə arasında 1992-ci ilin noyabr ayında imzalanmış "Azərbaycan Respublikasi Hökuməti ilə Türkiyə Respublikasi Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i əvəzləmək məqsədilə günün tələblərinə uyğun yeni Saziş layihəsinin hazırlanması üçün lazımı addımların atılması barədə razılığa gəldilər.

Türkiyə tərəfinin sorğusuna cavab olaraq, Azərbaycan tərəfi xarici ölkələrin avtonəqliyyat vasitələrindən alınan müəyyən ödənişlərin (təhlükəli yüklərin daşınmasına, böyük şəhərlərə girişə, ağır çəkili və iri qabaritli nəqliyyat vasitəsinə görə alınan ödənişlər) tənzimlənməsi istiqamətində görülən işlər

barədə məlumat verdi və tənzimlənmənin yaxın gələcəkdə təsdiq olunaraq qüvvəyə minməsinin gözlənildiyini bildirdi.

Türkiyə tərəfi Xəzər dənizindən keçid xərclərinə əlavə endirimlər tətbiq ediləcəyi təqdirdə, Mərkəzi Dəhlizin Türkiyə avtodaşıyıcıları üçün cəzbedici olacağını qeyd etdi və bununla bağlı Azərbaycan tərəfinin lazımi köməklik göstərməsini xahiş etdi.

İclasda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nümayəndəsi tərəfindən bərə və Ro-Ro daşımaları ilə əlaqədar tariflər, hərəkət cədvəli, gəmilərin sayı, yükgötürmə həcmi haqqında ətraflı məlumat verildi. Tərəflər avtonəqliyyat vasitələrinin Xəzər dənizindən keçid xərclərində əlavə güzəştlərin tətbiq edilməsi üçün daşıma xərclərinin optimallaşdırılması məqsədilə digər tərəfdaşlarla birgə təşəbbüslərin həyata keçirilməsinin vacibliyini vurğuladılar.

Bu Protokolun müddəaları yeni bir Protokol ilə dəyişikliklər edilənədək qüvvədədir.

İclas səmimi və qardaşlıq şəraitində keçirildi, hər iki ölkənin nümayəndə heyətləri iclasda əldə edilən nəticələrdən qarşılıqlı olaraq razılıqlarını ifadə etdilər.

Azərbaycan tərəfi Qarışıq Komissiyanın növbəti iclasının Azərbaycan Respublikasında keçirilməsini təklif etdi. İclasın yeri və tarixi barədə diplomatik kanallar vasitəsi ilə məlumat veriləcəyi bildirildi.

Bu Protokol 2021-ci ilin 25 iyun tarixində İstanbul şəhərində Azərbaycan və Türk dillərində tərtib edilmiş, eyni qüvvəyə malik olan iki əsl nüsxədə imzalanmışdır.

| Türkiyə nümayəndə heyəti adından | Azərbaycan nümayəndə heyəti adından |
|---|---|
| **Murat BAŞTOR** | **Nəmik HƏSƏNOV** |

## TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİ

| | |
|---|---|
| Murat BAŞTOR | Nəqliyyat və İnfrastuktur Nazirliyinin Nəqliyyat Xidmətləri Tənzimləmə Baş İdarəsinin rəisi |
| Hasan BOZ | Nəqliyyat və İnfrastuktur Nazirliyinin Nəqliyyat Xidmətləri Tənzimləmə Baş İdarəsində şöbə müdiri |
| Olcay DOĞAN | Nəqliyyat və İnfrastuktur Nazirliyinin şöbə müdiri |
| Derya ERTAN ŞAHİN | Nəqliyyat və İnfrastuktur Nazirliyinin sektor müdiri |
| Ufuk Can AKIN | Nəqliyyat və İnfrastuktur Nazirliyinin Nəqliyyat Xidmətləri Tənzimləmə Baş İdarəsində mütəxəssis |
| Serkan Sıtkı KAYATÜRK | Ticarət Nazirliyinin mütəxəssisi |
| Ali ÇİÇEK | Türkiye Odalar ve Borsalar Birliği (TOBB) |
| Nejla ALBAYRAK | Uluslararası Nakliyeciler Derneği (UND) |
| Hakan DEMİRCAN | Uluslararası Nakliyeciler Derneği (UND) |
| Hakan ERDEM | Uluslararası Karayolu ile Yük Taşımacılığı ve Acente Sahipleri Derneği (UKAT) |

## AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ

| | |
|---|---|
| Həbib HƏSƏNOV | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi |
| Nicat İBRAHİMLİ | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sektor müdiri |
| Malik ƏLİYEV | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə müdiri |
| Hidayət ASLANOV | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin sektor müdiri |
| Anar BABAYEV | Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəis müavini |
| Niyaməddin ASLANOV | "Azərbaycan Xəzər Dəniz Gəmçiliyi" QSC-nin aparıcı mütəxəssisi |